# QLÜKOKORTİKOİD İNYEKSİYALARI

AMADA
STAY CLEAN

**2026-ci il Yanvar ayının 1-dən** etibarən **yarış müddətində**
qlükokortikoidlərin **istənilən növ inyeksiya** vasitəsi ilə tətbiqi **qadağandır.**

## Qlükokortikoidlər nədir?

Qlükokortikoidlər təbabətdə geniş istifadə olunan, idmanda müxtəlif oynaq və bağ zədələnmələrində, həmçinin bronxial astma kimi müxtəlif tibbi vəziyyətlərin müalicəsində geniş istifadə olunan dərman qrupudur.

Qlükokortikoidlərə müxtəlif formalarda rast gəlmək olar.

- inhalyatorlar
- məlhəmlər
- göz və ya qulaq damcıları
- inyeksiya




## Yarış müddəti?

Yarış müddəti adətən yarışdan əvvəlki bir gün saat 23:59-dan başlayır.

11:59PM
YARIŞIN 1-Cİ GÜNÜ
YARIŞ MÜDDƏTİ

İdmançılar Beynəlxalq Federasiya (BF) qaydaları ilə tanış olmalı və öz idman növləri üzrə yarış müddətinin fərqlənib fərqlənmədiyini dəqiqləşdirməlidirlər.

## Əgər...?

...idmançının **yarış müddətində** inyeksiya vasitəsilə qlükokortikodlərin tətbiqinə ehtiyacı varsa?

YARIŞ MÜDDƏTİNDƏ

Əgər idmançının yarış müddətində müəyyən edilmiş diaqnoz üzrə müalicə məqsədilə inyeksion kartikosteroidlərdən istifadə zərurəti yaranarsa o, Terapevtik İstifadə üçün İstisnalar (TİI) icazəsi üçün müraciət etməlidir. Müraciət qaydaları və müddəti haqqında ətraflı məlumatı idmançılar və İdmançı Köməkçi Heyətinin (İKH) üzvləri Milli Antidopinq Təşkilatından (MADT), BF və ya Əsas Yarış Təşkilatçılarından əldə etməlidirlər.

... idmançının **yarış müddətindən dərhal öncə** inyeksiya vasitəsilə qlükokortikodlərin tətbiqinə ehtiyacı varsa?

YmK YARIŞ MÜDDƏTİ

Yarışdan kənar müddətdə inyeksion qlükokortikoidlərdən istifadə edildikdə bəzi hallarda TİI icazəsinin alınması tələb oluna bilər. İdmançıya qlükokortikoidlərin inyeksiya saatı və tarixini bilmək vacibdir, belə ki, bu **«Xaricolunma müddəti»** adlanan dövrə təsadüf edə bilər.

YmK = Yarış müddətindən Kənar

... idmançının **yarış müddətindən kənar** aldığı inyeksiya yarış müddətində müsbət test verərsə?

YmK YARIŞ MÜDDƏTİ

Əgər idmançıya yarışdan kənar müddətdə qlükokortikoid inyeksiyası tətbiq olunubsa və yarış müddətində dopinq testinə cəlb edilibsə o, retroaktiv TİI icazəsi üçün müraciət edə bilər. Yəni, idmançı və onun müalicə həkimi inyeksion qlükokortikosteroidlərdən istifadəsinə səbəb olan tibbi vəziyyətin zəruriliyini təsdiq edən müvafiq tibbi sənədlər toplusunu retroaktiv TİI üçün hazır saxlamalıdırlar.

*i* **Xaricolunma müddəti** son tətbiq olunan dozadan yarış müddətinin başlanmasına qədər olan müddətdir. (yəni, ÜADA tərəfindən digər tərif müəyyən edilmədiyi təqdirdə, İdmançının iştirak edəcəyi yarışdan əvvəlki bir gün saat 23:59-dan başlayan müddət yarış müddəti hesab olunur).

TİI

**VACİBDİR:** TİI müvafiq meyarlara uyğun olduqda verilə bilər. İdmançılar və onların tibb heyəti TİI icazəsinin verilməsi üçün yetərli əsaslandırmanın, tibbi sənədlərin olmasını diqqətlə qiymətləndirməlidirlər. TİI icazəsi təsdiq edilmədikdə idmançı antidopinq qayda pozuntusu ilə üzləşə bilər.

## Xaricolunma müddəti nədir?

İdmançılar və İKH üzvlərinin yarışdan kənar müddətdə istifadəsinə icazə verilən maddənin yarış müddətində də müsbət dopinq test nəticəsi verə bilmə ehtimalı haqqında məlumatlı olmaları vacibdir.

Bu səbəbdən idmançılar və İKH üzvləri inyeksiya vasitəsi ilə tətbiq edilən qlükokortikoidlərin orqanizmdən xaric olması üçün tələb olunan müddət haqqında məlumatlı olmalıdırlar ki, qadağan edilmiş maddənin idmançının nümunəsində aşkar edilmə riski az olsun.

Bu hal xaricolunma müddəti kimi tanınır.

İdmançılar qlükokortikoid inyeksiyasının nə zaman və hansı dozada tətbiq edilməsindən asılı olaraq yarış müddətində maddənin orqanizmdən tam xaric olunmaması səbəbindən müsbət dopinq testi riski altındadırlar.

**Yadda saxlayın:** Yarış müddətində istifadəsi qadağan edilmiş maddələrin yarışdan kənar müddətdə istifadəsi idmançı üçün təhlükəli ola bilər. Maddə yarışdan kənar müddətdə tətbiq edilsə belə yarış müddətində idmançı test edilərsə onun dopinq test nəticəsi müsbət ola bilər.

| Yeridilmə (tətbiq) üsulu | Qlükokortikoid | Xaricolunma müddəti* |
|---|---|---|
| Oral | Bütün qlükokortikoidlər; | 3 gün |
| | Triamsinolone; triamsinolone asetonide istisna olmaqla | 10 gün |
| Əzələdaxili | Betamethasone; dexamethasone; methylprednisolone | 5 gün |
| | Prednisolone; prednisone | 10 gün |
| | Triamcinolone acetonide | 60 gün |
| Yerli inyeksiyalar (o cümlədən periartikulyar, intraartikulyar, peritendinoz və intratendinoz) | Bütün qlükokortikoidlər; | 3 gün |
| | Prednizolone; prednizone; triamsinolone asetonide; triamsinolone hexacetonide istisna olmaqla | 10 gün |
| Rektal | Bütün qlükokortikoidlər; | 3 gün |
| | Triamcinolone, diacetate triamcinolone acetonide istisna olmaqla | 10 gün |

## İdmançı nə etməlidir?

**Ciddi məsuliyyət:** Qlükokortikoid inyeksiyası ilə əlaqədar təsadüfi (qəsdən olmayaraq) dopinq riskləri haqqında xəbərdar və məlumatlı olun

**Danış:** Məşqçi və idman həkiminizin qlükokortikoid inyeksiyalarından istifadə ilə bağlı dəyişikliklər haqqında məlumatlı olduqlarına əmin olun

**Araşdır:** inyeksiya vasitəsilə tətbiq edilən maddənin qadağan edilib-edilmədiyini əvvəlcədən yoxlayın

**Aydınlaşdır:** Alternativ müalicənin mümkün olmasını tibb işçilərindən aydınlaşdırın

**Yoxla:** BF-dən yarış müddətinin başlanmasına dair qaydanı və yarış müddətinin başlanma dövrünü öyrənin

**Hazırla:** Öz MADT və ya BF-dən TİI icazəsi üçün müraciət prosesini öyrənin və TİI üçün tələb olunan tibbi sənədlər qovluğunu hazır saxlayın

**Öyrən:** Qadağan edilmiş Siyahı və TİI haqqında ADEL-dən mümkün qədər çox məlumat əldə edin

## İdmançı nə etməlidir?

Qlükokortikoidlər idman təbabətində tez-tez istifadə edilən dərman vasitələridir. İdmançılarda müsbət dopinq testi nəticəsinin qarşısını almaq üçün idmançılar, məşqçilər, tibb işçiləri və digər idmançı köməkçi heyətinin üzvləri bu dəyişikliklər haqqında məlumatlandırılmalıdır.

İdmançılar

Məşqçilər

Tibb işçiləri